# Yeni Azərbaycan Partiyası ümummilli lider Heydər Əliyevin parlaq ideyalarının daşıyıcısıdır

**Noyabrın 20-də Yeni Azərbaycan Partiyası (YAP) Pirallahı rayon təşkilatı "Neft Daşları" qəsəbəsində partiyanın yaradılmasının 27-ci ildönümü ilə bağlı yekun bayram tədbiri keçirdi.**





Tədbirdə Yeni Azərbaycan Partiyası Pirallahı rayon təşkilatının sədri Hikmət Şikarov, Ekologiya və Təbii Sərvətlər nazirinin birinci müavini, Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü Firdovsi Əliyev, Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru, iqtisad elmləri doktoru Ədalət Muradov, Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektoru, tarix elmləri doktoru Cəfər Cəfərov, Yeni Azərbaycan Partiyası Pirallahı rayon təşkilatı "Neft Daşları" NQÇİ ilk partiya təşkilatının fəalları iştirak edirdilər.

Tədbirdən öncə qonaqlar müasir dövlətimizin banisi, Yeni Azərbaycan Partiyasının qurucusu, ümummilli lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri qoydular.

"Neft Daşları" NQÇİ-nin Mədəniyyət evində keçirilən tədbirdə Yeni Azərbaycan Partiyasının yaranması və keçdiyi şərəfli yol haqqında videoçarxın nümayişindən sonra çıxış edən Yeni Azərbaycan Partiyası Pirallahı rayon təşkilatının sədri Hikmət Şikarov qeyd etdi ki, ulu öndər Heydər Əliyevin zəngin siyasi və dövlətçilik təcrübəsinə əsaslanan Yeni Azərbaycan Partiyası ölkəmizdə ən güclü, monolit siyasi təşkilatdır: "Ötən müddətdə yüksək nüfuz qazanmış Yeni Azərbaycan Partiyası siyasi mübarizələrlə dolu şərəfli yol keçib. İqtidar partiyası olaraq Yeni Azərbaycan Partiyası Heydər Əliyev siyasətinin avanqard qüvvəsi kimi, xalqımızın qarşısında dayanan vəzifələrin həll edilməsinə layiqli töhfəsini vermiş və bundan sonra da verəcək. Bu gün Prezident İlham Əliyevin rəhbərlik etdiyi Yeni Azərbaycan Partiyasının sıraları getdikcə genişlənir. Bu, dövlətimizin başçısına və Yeni Azərbaycan Partiyasına Azərbaycan cəmiyyətində olan dərin inamdan və ehtiramdan irəli gəlir."

Ekologiya və Təbii Sərvətlər nazirinin birinci müavini, Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü Firdovsi Əliyev bildirdi ki, artıq monolit birliyi, sosial bazası və yüksək intellekti olan bir siyasi təşkilata çevrilən, öz sıralarında ictimaiyyətin bütün təbəqələrini birləşdirən Yeni Azərbaycan Partiyası ümummilli lider Heydər Əliyevin parlaq ideyalarının daşıyıcısı kimi cəmiyyətdə öz aparıcı rolunu gündəngünə daha da möhkəmləndirir: "Yarandığı gündən Yeni Azərbaycan Partiyasının Proqramında irəli sürülmüş vəzifələr dövlət müstəqilliyinin möhkəmləndirilməsi, demokratik, hüquqi, dünyəvi dövlətin qurulması, vətəndaşların dinc və firavan həyatının təmin edilməsidir."

Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru, iqtisad elmləri doktoru Ədalət Muradov çıxış edərək qeyd etdi ki, Yeni Azərbaycan Partiyasının Proqramında irəli sürülmüş əsas vəzifələr dövlət müstəqilliyinin möhkəmləndirilməsi, demokratik, hüquqi, dünyəvi dövlətin qurulması, vətəndaşların dinc və firavan həyatının təmin edilməsidir: "Partiya məfkurəsinin əsasını təşkil edən müstəqil dövlətçilik, qanunçuluq, azərbaycançılıq, yaradıcı təkamül, vətəndaş həmrəyliyi və sosial ədalət prinsipləri YAP-ın qarşısında duran vəzifələrin həyata keçirilməsinin ideya təminatı olaraq mahiyyətcə Azərbaycanın siyasi gələcəyinin də ideya bazasını şərtləndirmiş olur."

Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektoru, tarix elmləri doktoru Cəfər Cəfərov qeyd etdi ki, Heydər Əliyevin əsasını qoyduğu Yeni Azərbaycan Partiyasının sıralarında bu gün yüz minlərlə insanın birləşməsi xalqın partiyaya olan dərin inam və ehtiramının göstəricisidir: "Partiyamız öz qarşısında duran vəzifələri böyük uğurla həyata keçirir. Yeni Azərbaycan Partiyası xalqın partiyasıdır. Bu gün partiya ölkəmizdə həyata keçirilən hüquqi dövlət, vətəndaş cəmiyyəti quruculuğu, demokratik inkişaf prosesində yaxından iştirak edir, müstəqil Azərbaycan dövlətinin yüksəlişinə, tərəqqisinə öz töhfəsini əsirgəmir."

Yeni Azərbaycan Partiyası Pirallahı rayon təşkilatı sədrinin müavini, "Neft Daşları" NQÇİ-nin rəisi Qoçalı Mahmudov tədbirin təşkilatçılarına və qonaqlara təşəkkürünü bildirərək müstəqil Azərbaycan dövlətinin qurulmasında və respublikamızın inkişafında Yeni Azərbaycan Partiyasının əvəzsiz xidmətlərindən danışdı.

Rəsmi hissə partiyanın ictimai-siyasi həyatında fəallıq göstərdiklərinə görə bir qrup YAP Pirallahı rayon təşkilatı üzvlərinin Fəxri fərmanlarla təltif olunması və partiya sıralarına yeni qəbul edilmiş üzvlərə partiyaya üzvlük vəsiqəsinin təqdim olunması ilə yekunlaşdı.

Tədbir respublikanın tanınmış incəsənət nümayəndələrinin iştirakı ilə konsert proqramı ilə davam etdi.

**✍ Orxan Vahidoğlu,**
**Samir Paşayev (foto)**
***"İki sahil"***

# Milyonların partiyası



YAP Səbail rayon təşkilatında Yeni Azərbaycan Partiyasının yaradılmasının 27-ci ildönümü münasibətilə tədbir keçirildi.

Milli Məclisin Aqrar siyasət komitəsinin sədri, iqtisad elmləri doktoru, professor Eldar İbrahimov, Milli Məclisin deputatı, YAP Səbail rayon təşkilatının sədri, iqtisad elmləri doktoru, professor Şəmsəddin Hacıyevin, partiya təşkilatının Rayon Şurası və İdarə Heyəti üzvlərinin, partiya veteranlarının, rayonun idarə və müəssisələri nümayəndələrinin iştirak etdikləri tədbirdə ilk öncə, 1991-ci il 20 noyabrında Xocavənd rayonunun Qarakənd kəndi yaxınlığında erməni hərbi dəstələri tərəfindən törədilən terror əməliyyatı nəticəsində faciəvi şəkildə həlak olan Azərbaycanın görkəmli dövlət, siyasət və mədəniyyət nümayəndələrinin, eləcə də ötən müddət ərzində dünyasını dəyişən "91-lər"in və partiya üzvlərinin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edildi.

Sonra Yeni Azərbaycan Partiyasının yaradılmasına və fəaliyyətinə həsr olunan videofilm nümayiş etdirildi.

Ulu öndər Heydər Əliyevin yaxın silahdaşlarından olan və Yeni Azərbaycan Partiyasının yaradılmasında, müstəqil dövlət quruculuğunda yaxından iştirak edən Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Eldar İbrahimov 27 illik yubileyi qeyd olunan Yeni Azərbaycan Partiyasının təsis olunmasını zəruri edən şərtlər, partiyanın təşkilatlanması prosesləri, o dövrdəki çətinliklər və təqiblər haqqında danışdı:

- Azərbaycanın müasir siyasi tarixinə unudulmaz və möhtəşəm bir gün kimi daxil olan 1992-ci il noyabrın 21-i respublikamızın ictimai-siyasi həyatında yeni tarixi başlanğıc nöqtəsi sayılır. Belə ki, ulu öndər Heydər Əliyev hələ 1990-cı ilin 17 noyabrında Naxçıvan Muxtar Sovet Sosialist Respublikası Ali Sovetində Azərbaycanın üçrəngli bayrağını dalğalandıraraq Azərbaycanın müstəqillik yolunun təməlini qoydu. Zaman Heydər Əliyevin müdrikliyini, uzaqgörənliyini təsdiqlədi.

Milli Məclisin deputatı, YAP Səbail rayon təşkilatının sədri Şəmsəddin Hacıyev Azərbaycanın müasir siyasi tarixinin ən şərəfli hadisələrindən olan Yeni Azərbaycan Partiyasının yaradıldığı mürəkkəb şəraitdən bəhs etdi. Deputat Azərbaycanda 1988-ci ildən başlayan milli oyanış, özünəqayıdış, azadlıq mübarizəsi və meydan hərəkatları, SSRİ kimi nəhəng fövqəldövlətin süqutu nəticəsində Azərbaycanın müstəqillik əldə etməsi, 1991-1993-cü illərdə ölkəmizdə baş verən son dərəcə ağır, ziddiyyətli və mürəkkəb proseslər, bütün bu hadisələrin məntiqi yekunu kimi tamamilə obyektiv zərurətdən yaradılan Yeni Azərbaycan Partiyasının keçdiyi yol haqqında ətraflı danışdı.

Çıxış edən Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədr müavini Sədaqət Qəhrəmanova, , Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının dekanı, professor Elçin Əhmədov Azərbaycan Dövlət İqtisad Universitetinin tələbə-rektoru Cavidan Adilzadə Azərbaycan xalqı və müstəqil dövlətçiliyinin qurulması üçün xilaskarlıq missiyasını yerinə yetirən, müstəqilliyin ilk illərində ölkəmizdə hökm sürən hakimiyyət böhranı və dövlətçiliyimiz üçün ən taleyüklü məqamda xalqımızı milli azərbaycançılıq ideologiyası ətrafında birləşdirməyə nail olan Ulu Öndərin əvəzsiz xidmətlərindən danışdılar.

**✍ Xuraman İsmayılqızı,**
***"İki sahil"***

# GÜCÜNÜ XALQIN DƏSTƏYİNDƏN ALAN PARTİYA



Yeni Azərbaycan Partiyası Qusar rayon təşkilatında partiyanın yaranmasının 27-ci ildönümü münasibətilə tədbir keçirilib.

Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, YAP rayon təşkilatının sədri David İbrahimxəlilov çıxış edərək bildirib ki, partiya Azərbaycan tarixinin son dərəcə ağır və keşməkeşli günlərində, ölkənin ağır sınaqlara məruz qaldığı bir dövrdə Azərbaycan ziyalılarının təşəbbüsü və fəal iştirakı ilə yaranıb. YAP-ın yaradılmasının bir tarixi zərurət kimi meydana çıxdığını deyən D.İbrahimxəlilov qeyd edib ki, partiya Azərbaycan tarixinin son dərəcə ağır və keşməkeşli günlərində, ölkənin ağır sınaqlara məruz qaldığı bir dövrdə Azərbaycan ziyalılarının təşəbbüsü və fəal iştirakı ilə yaranıb. Qeyd edib ki, ölkəmiz Prezident, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin rəhbərliyi ilə böyük inkişaf yolu keçib, bütün sahələrdə möhtəşəm nailiyyətlər əldə edilib.

YAP Qusar rayon təşkilatının sədr müavini Nadirşah Şirinov, rayon Heydər Əliyev Mərkəzinin direktoru, YAP rayon təşkilatının Qadınlar Şurasının sədr müavini Neva Abdurahmanova və YAP rayon təşkilatının Gənclər birliyinin sədr müavini Ayaz Abdullayev öz çıxışlarında ümummilli lider Heydər Əliyevin Azərbaycan xalqı qarşısında göstərdiyi əvəzsiz xidmətlərdən bəhs ediblər. Vurğulanıb ki, öz gücünü xalqın dəstəyindən alan Yeni Azərbaycan Partiyası ölkəmizdə davamlı islahatların həyata keçirilməsinə, ictimai-siyasi sabitliyin qorunmasına, Azərbaycanın inkişafına, dövlət müstəqilliyimizin güclənməsinə, ölkəmizin beynəlxalq nüfuzunun artmasına milsilsiz töhfələr verib.

Sonda YAP sıralarına yeni üzv olmuş bir qrup gəncə partiya vəsiqələri təqdim olunub.

**✍ Zahid Rza, *"İki sahil"***